# Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə"yə müsahibəsi xarici ölkə mətbuatının diqqət mərkəzində olub

























Türkiyənin aparıcı xəbər agentlikləri, telekanalları, qəzetləri və xəbər portalları Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin mətbuatının diqqətini, xüsusilə Azərbaycan rəhbərinin Zəngəzur dəhlizinin açılması, Suriya ilə İsrail arasında gərginliyin aradan qaldırılması, Türkiyənin qlobal arenada tutduğu mövqelərlə bağlı bəyanatları cəlb edib.

Türkiyənin telekanalları, agentlikləri və qəzetləri Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin bütün region üçün əhəmiyyəti ilə bağlı mövqeyini çoxmilyonlu auditoriyaya çatdırıb. Azərbaycan liderinin "Zəngəzur dəhlizi təkcə Şərq-Qərb nəqliyyat dəhlizi deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq" sözləri vurğulanıb.

Azərbaycan Prezidentinin qlobal gündəmdəki digər aktual məsələlər, o cümlədən Yaxın Şərqdəki proseslərlə bağlı müsahibəsindən fikirlər təqdim olunur.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, Gürcüstanın nüfuzlu "interpressnews.ge", "palitranews.ge", "aktual.ge", "resonancedaily.com", "24news.ge" informasiya portalları və "1tv.ge" televiziya kanalı Azərbaycan Prezidentinin müsahibəsindən materiallar hazırlayıb.

Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın siyasi kursu, sülh siyasəti, "dərin dövlət"in fəaliyyəti, Zəngəzur dəhlizi, İran Prezidentinin açıqlamaları, eləcə də Azərbaycana aid təyyarənin vurulması ilə bağlı fikirləri geniş yer alıb.




